# GDU-nun kollektivi ağacəkmə aksiyası keçirmişdir

"Heydər Əliyev İli" çərçivəsində Gəncə Dövlət Universitetinin (GDU) kollektivi tədris korpuslarının və tələbə yataqxana şəhərciyinin həyətində ağacəkmə aksiyası keçirmişdir.



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş aksiyada universitetin tələbələri, professor və müəllim heyəti iştirak etmişdir. Aksiyada 100 şam ağacı əkilmiş və onlara aqrotexniki qulluq göstərilmişdir.

Universitetin rektoru Yusif Yusibov demişdir ki, Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi, yeni nəslə aşılanması məqsədilə universitetdə ardıcıl tədbirlər həyata keçirilir və ağacəkmə aksiyası da bu tədbirlərdən biridir.

Azərbaycan.- 2023.- 6 aprel.- S.11.